AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 14/2

Bakı şəhəri 18 noyabr 2016-cı il

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin
“AMEA Yüksək Texnologiyalar Parkının yaradılması
haqqında" Sərəncamının icrası barədə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “AMEA Yüksək Texnologiyalar Parkının yaradılması haqqında” 8 noyabr 2016-cı il tarixli Sərəncam imzalamışdır. Sərəncamın əsas məqsədi iqtisadiyyatın davamlı inkişafına və rəqabət qabiliyyətinin artırılmasına, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsinə, elmi tədqiqatların aparılmasına və yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasına dövlət dəstəyini daha da artırmaqdır. Sərəncamın icrasını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “AMEA Yüksək Texnologiyalar Parkının yaradılması haqqında” Sərəncamının icrasını təmin etmək məqsədilə aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

| | | |
|---|---|---|
| Akademik İbrahim Quliyev | – | AMEA-nın vitse-prezidenti (sədr) |
| Akademik Rasim Əliquliyev | – | AMEA-nın akademik-katibi |
| Siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayev | – | AMEA-nın İşlər idarəsinin müdiri |
| Hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyev | – | AMEA Rəyasət Heyəti aparatının Hüquq və kadrlar idarəsinin rəisi |
| Aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayev | – | AMEA Rəyasət Heyəti aparatının İnnovasiya şöbəsinin rəisi |

2. İşçi qrupa (akademik İbrahim Quliyev) tapşırılsın ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “AMEA Yüksək Texnologiyalar Parkının yaradılması haqqında” Sərəncamının icrası ilə bağlı təkliflər hazırlanaraq 01 dekabr 2016-cı il tarixinədək AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ MƏRKƏZİ APARAT PROTOKOL ŞÖBƏSİ